# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 77 (1205) 23 aprel - 25 aprel 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ


# UĞURLARIN ÜNVANI GÖYÇAY

(əvvəli ötən sayımızda)

**Hesabat dövründə kəndlərin qaz təchizatının yaxşılaşdırılması istiqamətində tədbirlər görülmüş, cari ilin birinci rübündə İnçə və Alpout kəndlərinə təbii qaz verilişi bərpa edilərək rayon üzrə təbii qazla təmin olunan yaşayış məntəqələrin sayı 33-ə çatdırılmışdır. Hazırda daha 13 kəndə yeni qaz xətləri çəkilir. Rayonun təbii qazla təmin olunmayan 10 kəndinin qazlaşdırılması üçün layihə-smeta sənədləri hazırlanır.**

Əhalinin məşğulluq səviyyəsinin artırılması, yeni iş yerlərinin açılması və ilk növbədə sosial müdafiəyə daha çox ehtiyacı olan vətəndaşların işlə təmin olunması istiqamətində müəyyən tədbirlər həyata keçirilmiş, rüb ərzində rayon üzrə 497 ictimai iş yeri açılmış və ötən müddət ərzində rayon məşğulluq mərkəzinin göndərişləri ilə 482 nəfər işlə təmin olunmuşdur.

"AzNar" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən səhmləri alınmış "Göyçay-Toxucu" Səhmdar Cəmiyyətinin profili dəyişdirilmiş, keçmiş toxuculuq kombinatının bazasında mahlıcdan sapların əyrilməsi, parça toxunması və paltar tikilməsi istiqamətli istehsal müəssisələrinin yaradılması nəzərdə tutulur. Hazırda təmir-tikinti işlərinə başlanmış və inşaat işlərinə 70-ə yaxın fəhlə cəlb olumuşdur.

Nəzərdə tutulan layihənin həyata keçirilməsi nəticəsində inşa ediləcək istehsal sahələrində 650-ə yaxın yeni iş yeri yaradılacaqdır.

Rayon icra hakimiyyətinin başçısı Mübariz Ağayev onu da vurğulamışdır ki, daxili imkanlardan istifadə etməklə əhalinin maddi rifahının yüksəldilməsi, süni qiymət artımının qarşısının alınması istiqamətində müəyyən işlər görülmüş, fevral-mart aylarında şəhərdə hər şənbə günü satış yarmarkaları keçirilmiş, yarmarkalarda 10-ə yaxın yerli istehsal müəssisəsi və şirkəti, 120-ə yaxın fermer və kənd əməkçisi bazar qiymətindən aşağı olan müxtəlif ərzaq və kənd təsərrüfatı məhsullarını satışa çıxarmışlar.

Cari ilin birinci rübündə abadlıq və quruculuq sahəsində müəyyən işlər görülmüşdür.

Azərbaycan Respublikası Prezidentinin "Göyçay şəhərində çoxmənzilli binaların əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" 08 oktyabr 2015-ci il tarixli sərəncamına əsasən ayrılmış vəsait hesabına şəhərin mənzil fonduna aid olan 21 çoxmənzilli binada əsaslı təmir işlərinə başlanılmışdır.

Şəhərin bütün küçələrində lazımi qayda yaradılmış, su ötürən bərələr tullantılardan təmizlənmişdir. İctimai həyətlərin böyük əksəriyyətində lazımi qayda yaradılır, yeni asfalt örtüyü salınır. Səlyan qəsəbəsi adlanan ərazidə də geniş təmizlik işləri aparılmış, qəsəbənin həyətindən uzun illərdən bəri yığılmış tullantılar çıxarılmış, yararsız çəpərlər sökülmüş, ağaclar budanmış və ərazi kol-kosdan təmizlənmişdir. Şəhərin N.Nərimanov, R.Rza, M.Ə.-Rəsulzadə küçələrində yeni işıqlandırma sisteminin çəkilməsi üçün hazırlıq işləri aparılır. Yaxın günlərdə şəhərin Vidadi, Ş.Qurbanov, Həbibi küçələrinə yeni asfalt örtüyü vurulacaqdır.





Qeyd edək ki, rayonda abadlıq, quruculuq layihələri ilə yanaşı, park və xiyabanların genişləndirilməsi, mövcud bağların abadlaşdırılması istiqamətində də xeyli işlər görülmüş, cari ilin birinci rübündə 10 mindən artıq ağac və bəzək kolu əkilmişdir.

Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkə Prezidenti bu il regionların inkişafı istiqamətində bir çox böyük layihələrin icra ediləcəyini və nəzərdə tutulmuş layihələrin həyata keçirilməsi üçün 2 milyard manata yaxın vəsait lazım olacağını bildirmişdir. Bu vəsaitin bir hissəsi dövlətin güzəştli kreditləri, bir hissəsi isə sahibkarların hesabına təmin ediləcəkdir.

M.Ağayevin sözlərinə görə, layihənin icrası istiqamətində Göyçay rayonunda 2016-cı ildə illik istehsal gücü 5 min ton olan loqistik mərkəz, 3,8 min ton süd istehsal edən 500 başlıq südlük heyvandarlıq kompleksi, 20 ton meyvə yetişdirən 500 hektar istensiv meyvə bağı, il ərzində 100 min ədəd plastik və 500 min ədəd karton tara istehsal edən plastik və karton qablaşdırma müəssisəsi və yaşıl market inşa edilməlidir. Nəzərdə tutulmuş layihənin ümumi dəyəri 26,5 milyon manatdır. Rayon iqtisadiyyatına qoyulacaq investisiyalar böyük canlanmaya, 300-dən artıq yeni iş yerinin yaradılmasına gətirib çıxaracaq və rayonun ixrac imkanlarını daha da artıracaqdır. Hazırda investorların cəlb edilməsi və obyektlərin tikilməsi üçün torpaq sahələrinin seçilməsi istiqamətində müvafiq işlər aparılır.

> **"...Kənd təsərrüfatının, sahibkarlığın inkişafı isə bizim üçün prioritet istiqamətlərdir. Biz ərzaq təhlükəsizliyimizi tam şəkildə təmin etməliyik. Bu istiqamətdə çox önəmli addımlar atılır. Özümüzü əsas ərzaq məhsulları ilə 100 faiz təmin etmək üçün biz artıq bu hədəfə yaxınlaşırıq. Ərzaq təhlükəsizliyimizin tam şəkildə təmin edilməsi, ixrac potensialımızın artırılması gələcəkdə həm iş yerlərinin yaradılmasına, eyni zamanda, insanların rifah halının yaxşılaşmasına xidmət edəcəkdir".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

Ölkə prezidenti Nazirlər Kabinetinin iclasında Kənd Təsərrüfatının, konkret olaraq pambıqçılığın və baramaçılığın inkişafı, istifadəsiz torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi ilə bağlı ciddi tapşırıqlar vermişdir. Məlum olduğu kimi Göyçay rayonunda hər iki sahə üzrə 80-ci illərdə ciddi nailiyyətlər əldə edilmiş və həmin illərdə rayonda orta hesabla hər il 15 min tona yaxın pambıq, 250 tona yaxın barama istehsal olunurdu. Ancaq təəssüflə qeyd etmək lazımdır ki, son illər bu gəlirli sahələr tam yaddan çıxarılmış və rayon üzrə pambıq əkilməsi və barama yetişdirilməsi istiqamətində heç bir iş görülməmişdir.

Aparılmış təhlillərlə müəyyən edilmişdir ki, rayon üzrə əkinə yararlı torpaqların 1329 hektarından uzun müddətdir ki, istifadə olunmur.

Bu sahədə vəziyyəti düzəltmək istiqamətində hazırda müvafiq iş aparılır. Rayonun kəndlərində istifadəsiz torpaq sahələrində pambıq əkini üçün 200 hektara yaxın ərazidə şum çıxarılmış və arat işləri aparılmışdır. 150 hektar sahədə qarğıdalı əkilməsi ilə bağlı tədbirlər görülür.

Pambıqçılığı və baramaçılığı növbəti illərdə daha intensiv inkişaf etdirmək məqsədi ilə təkliflər hazırlanmış və müvafiq orqanlara təqdim edilmişdir.

**Bu gün Göyçayda səhiyyə, mədəniyyət, təhsil sahəsində də köklü işlər görülüb. Həyata keçirilən islahatlar və yenidənqurma göstərir ki, şəhər icra hakimiyyətinin həyata keçirdiyi planauyğun tədbirlər öz müsbət nəticəsini verir.**

***Şamxal ŞƏBİYEV***